

№ 185 (7329) CÜMƏ AXŞAMI, 25 avqust 2016-cı il

Qəzetin əsası 1918-ci ildə qoyul



# Sahibkarların böyük himayədarı

**Prezident İlham Əliyev:** "...Vergi sahəsində, xüsusilə gömrük sektorunda ciddi islahatlar aparılır... Hesab edirəm ki, vergi sistemində aparılan islahatlar ilin sonuna qədər bütün bu vəziyyəti şəffaflaşdıracaq. Necə ki, gömrük orqanlarında bütün məsələlər şəffaf şəkildə öz həllini tapır"

Dövlətin prioritet kimi qarşıya qoyduğu qeyri-neft sektorunun inkişafında sahibkarlığın üzərinə düşən vəzifələrin həlli böyük əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin sahibkarların fəaliyyətlərinin səmərəli olması üçün onlara göstərdiyi hərtərəfli dəstəyin bir qolu da vergi və gömrük sistemində çoxsaylı yeniliklərin tətbiq edilməsidir.

Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısı ilin ilk 6 ayında genişmiqyaslı iqtisadi islahatlar aparıldığını, o cümlədən vergi və gömrük sahələrində də yeni islahatların həyata keçirildiyini bildirib. Prezident, bununla yanaşı, büdcəyə daha çox vəsait toplanması üçün imkanlar olduğunu qeyd edib və həmin ehtiyatların aşkarlanması, ilin sonunadək bu sahədəki vəziyyətin tam şəffaflaşdırılması ilə bağlı konkret tapşırıqlar verib.

Bu istiqamətdə qarşıda duran vəzifələrin yerinə yetirilməsi məqsədilə dövlət başçısı avqustun 4-də "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" sərəncam verib.

Xatırladaq ki, son 10 ildə vergi sistemi əsaslı şəkildə modernləşdirilib, vergi inzibatçılığı kökündən dəyişdirilərək beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilib. Vergi orqanları ilə vergi ödəyiciləri arasında texnoloji baxımdan mükəmməl elektron əlaqələrin yaradılması, geniş təhlil bazasına malik informasiya sistemlərinin qurulması istiqamətində əməli tədbirlər həyata keçirilib.

Hazırda vergi ödəyicilərinin 90 faizə qədəri vergi bəyannamələrini elektron şəkildə təqdim edir. Artıq vergi ödənişləri plastik kartlarla internet üzərindən də həyata keçirilə bilir. Dünya təcrübəsində ən mütərəqqi yeniliklərdən olan "E-audit" və "Asan imza" kimi mühüm layihələr keçmiş sovet məkanında birinci olaraq məhz Azərbaycanın vergi sistemində reallaşdırılıb.

Görülən ardıcıl tədbirlərin nəticəsidir ki, son 10 ildə vergi daxilolmaları 5, qeyri-neft-qaz sektorundan daxilolmalar 5,7, regionlardan büdcə daxilolmaları isə 10,2 dəfə artıb. Qeyri-neft-qaz sektorundan daxilolmaların ümumi vergi daxilolmalarında xüsusi çəkisi hazırda 70 faizə çatır.

"2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" sərəncam vergi sisteminin inkişafında, xüsusilə vergi inzibatçılığının həyata keçirilməsində yeni bir mərhələdir.

Sərəncamda müəyyən edilmiş islahatların başlıca istiqamətləri biznes mühitinin daha da yaxşılaşdırılması, vergi qanunvericiliyinin sahibkarlığın aparılması üçün əlverişli şərtlərin yaradılması və sahibkarların hüquqlarının genişləndirilməsi ilə əlaqədar müddəaları, həmçinin vergitutma bazasının genişləndirilməsi və vergi nəzarətinin səmərəliliyinin artırılması ilə bağlıdır. Belə ki, qarşıdakı dövrdə istehsal fəaliyyəti ilə məşğul olan kiçik və orta sahibkarlar üçün mənfəət (gəlir) və əlavə dəyər vergisinin dərəcələrinin aşağı salınması ilə bağlı qanunvericilikdə dəyişikliklər edilməsi və bu sahədə vergi inzibatçılığının yüngülləşdirilməsi planlaşdırılır.

Ardı 7-ci səh.

# Sahibkarların böyük himayədarı

*Əvvəli 1-ci səh.*

Sərəncamın mühüm bir müddəası da əlavə dəyər vergisinin (ƏDV) diferensiallaşdırılması ilə bağlıdır. Yəni bir sıra istehlak mallarının qiymətlərinin ƏDV-nin diferensiallaşdırılması yolu ilə tənzimlənməsi nəzərdə tutulur. Dünya təcrübəsində belə mallara uşaq qidaları, məktəbli ləvazimatları, dərman vasitələri, əlillər üçün tibbi məhsullar və avadanlıqlar, kitablar və bir sıra xidmət növləri daxildir.

Uzun müddətdir müəyyən diskussiyalara səbəb olmuş kənd təsərrüfatı məhsullarının ticarət şəbəkələrində pərakəndə satışı zamanı tam dəyərinin ümumi qaydada ƏDV-yə cəlb edilməsi ilə bağlı məsələ də artıq öz həllini tapıb. Bu addım kiçik və orta sahibkarlığı stimullaşdırmaqla yanaşı, pərakəndə ticarətdə rəqabət mühitini təmin edəcək.

Vergi ödəyicilərinə xidmətlərin spektri genişləndiriləcək və bir sıra yeni elektron xidmətlərin tətbiqi həyata keçiriləcək. Vergilərini vaxtlı-vaxtında ödəyən nümunəvi vergi ödəyiciləri və intizamsız vergi ödəyiciləri müəyyən ediləcək və onların adları ictimaiyyətə açıqlanacaq. Nümunəvi vergi ödəyicilərinə münasibətdə vergi inzibatçılığı sadələşdiriləcək və onlara ünvanlı xidmətlər göstəriləcək.

Vergitutma bazasının genişləndirilməsi və vergi nəzarəti ilə bağlı məsələlərə gəldikdə isə, xərclərin süni şəkildə artırılması hallarının aradan qaldırılması, ölkə hüdudlarından kənarda həyata keçirilən əməliyyatlar üzrə gəlirlərin transfert qiymətləri tətbiq edilməklə vergiyə cəlb olunması üçün qanunvericiliyə dəyişiklik ediləcək. Bununla yanaşı, Azərbaycan Respublikası rezidentlərinin güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə (ofşor zonalarda) yaradılmış müəssisələrlə əməliyyatlara səmərəli nəzarət mexanizmlərinin qurulması nəzərdə tutulur.

Məlum həqiqətdir ki, bəzi vergi ödəyiciləri vergi qanunvericiliyi ilə təyin olunmuş hüquqlardan sui-istifadə edir, yəni vergidən yayınırlar. Beynəlxalq təcrübə nəzərə alınmaqla belə vergi ödəyicilərinin vergitutma obyektlərini şəffaf şəkildə vergiyə cəlb etmək və vergitutma bazasının gizlədilməsinin qarşısını almaq məqsədilə vergi qanunvericiliyinə hüquqlardan sui-istifadə əleyhinə müddəaların daxil edilməsi nəzərdə tutulur. Nəzərdə tutulan məsələlərdən biri də könüllü vergi açıqlaması vergi orqanı tərəfindən keçirilən vergi yoxlaması zamanı aşkar olunmamış səhvlərin vergi ödəyicisi tərəfindən könüllü olaraq bəyan edilməsidir. Bu, vergi ödəyicisinə dəqiqləşmiş bəyannamə verilməsi hüququnu təqdim edir. Həmin bəyannamə ilə könüllü açıqlanmış vergi məbləğlərinə görə vergi ödəyicisinə faiz hesablanması və maliyyə sanksiyasının tətbiqi istisna ediləcək.

Dövlətin gömrük sistemində həyata keçirdiyi islahatlar da sahibkarlara gördükləri dəyərli işlərdə böyük dayaqdır. Belə ki, indi gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük orqanlarına bəyan edilməsi ilə bağlı prosedurların sadələşdirilməsi, gömrük xidmətlərinin göstərilməsində şəffaflığın təmin edilməsi, sahibkarlar üçün əlverişli biznes mühitinin yaradılması və xarici ticarət əməliyyatlarının daha da stimullaşdırılması məqsədilə malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi elektron bəyannamə sistemi vasitəsilə həyata keçiriləcək. Bununla bağlı dövlət başçısı tərəfindən müvafiq sərəncam imzalanmış, malların gömrükdən keçirilməsinin yeni qaydaları müvafiq sərəncamla təsdiq edilmişdir. Bu qaydalarda istifadə olunan əsas anlayışlar tətbiq edilən 4 yeniliklə - "Yaşıl dəhliz", "Mavi dəhliz", "Sarı dəhliz" və "Qırmızı dəhliz" anlayışları ilə bağlıdır.

"Yaşıl dəhliz" gömrük sərhəd buraxılış məntəqələrində gömrük qanunvericiliyi ilə müəyyən edilmiş məlumatlandırma və qeydiyyat əməliyyatlarının yerinə yetirilməsi vasitəsilə malların və nəqliyyat vasitələrinin fiziki yoxlanması aparılmadan gömrük prosedurunа uyğun gömrük ərazisinə buraxılışını nəzərdə tutan sistemidir. O, əvvəlcədən elektron formada təqdim olunmuş qısa idxal bəyannaməsi əsasında aparılmış gömrük nəzarətinə və risk qiymətləndirilməsinin nəticələrinə uyğun olaraq həyata keçirilir.

"Mavi dəhliz" gömrük sərhəd buraxılış məntəqəsindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük ərazisinə buraxılışından sonra gömrük nəzarəti formalarının tətbiqini nəzərdə tutur.

"Sarı dəhliz" gömrük sərhəd buraxılış məntəqəsindən keçirilən malların və nəqliyyat vasitələrinin, məlumatların, elektron və ya kağız daşıyıcıda sənədlərin, o cümlədən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş ekvivalentlik prinsipinə uyğun olaraq ixracatçı ölkə tərəfindən əvvəlcədən verilən baytarlıq, fitosanitar, gigiyenik və digər sertifikatların (şəhadətnamələrin), mülki dövriyyəsi məhdudlaşdırılmış malların dövriyyəsinə verilən xüsusi icazənin mövcudluğunun və digər hüquq müəyyənedici sənədlərlə müşayiət olunmasının yoxlanmasını və gömrük nəzarəti formalarının tətbiqini nəzərdə tutan buraxılış sistemidir.

"Qırmızı dəhliz" isə gömrük məqsədləri üçün lazım olan məlumatların və sənədlərin, eləcə də malların və nəqliyyat vasitələrinin, habelə tələb edilən hallarda şəxsin yoxlanmasını nəzərdə tutur.

Prezident İlham Əliyevin dediyi kimi: "Eyni zamanda, vergi sahəsində, xüsusilə gömrük sektorunda ciddi islahatlar aparılır. Bu il gömrük orqanlarından daxilolmalar plandan 17 faiz artıq yığılıbdır. Bu çox müsbət nəticədir. Vergi orqanlarında yığım plandan 2 faiz artıq təmin edilib. Amma orada da böyük ehtiyatlar var. Hesab edirəm ki, vergi sistemində aparılan islahatlar ilin sonuna qədər bütün bu vəziyyəti şəffaflaşdıracaq. Necə ki, gömrük orqanlarında bütün məsələlər şəffaf şəkildə öz həllini tapır. Təbii ki, bunu həm insanlar, biznesmenlər, iş adamları görür, eyni zamanda büdcəyə daha da böyük həcmdə vəsait daxil olur. Yeni, bütün sahələrdə islahatlar dərinləşməlidir, şəffaflıq təmin edilməlidir, nəzarət, maliyyə nəzarəti daha da gücləndirilməlidir. Belə olan halda biz neftdən asılılığı tamamilə aradan götürəcəyik. Məsələ məhz belə qoyulub. Bir neçə il ərzində dövlət büdcəmiz, onun mütləq əksəriyyəti qeyri-neft sektoru hesabına təmin edilməlidir. Ondan sonra neftin qiyməti qalxdı-düşdü, bunun heç bir əhəmiyyəti olmayacaq".

***Flora SADIQLI,***
***"Azərbaycan"***